**Anar Qocayev**

# KƏSİŞƏN YOLLAR

QANUN NƏŞRİYYATI

Bu əsər həyatın müxtəlif yollarında addımlayan insanların talelərinin gözlənilmədən kəsişməsindən bəhs edir. Fərqli arzular, seçimlər və keçmişlərlə yaşayan qəhrəmanlar bir nöqtədə qarşılaşaraq həyatlarının istiqamətini dəyişən qərarlar verməli olurlar.

Əsərdə dostluq, sevgi, xəyanət və insanın öz yolunu tapmaq uğrunda apardığı daxili mübarizə təsvir edilir. Hadisələr inkişaf etdikcə qəhrəmanlar anlayırlar ki, bəzən bir təsadüf bütün həyatı dəyişə bilər və hər kəsi öz seçiminin nəticəsi gözləyir.

## MÜNDƏRİCAT

Giriş........................................................................ 6
Birinci hissə .................................................................. 8
İkinci hissə ................................................................... 61
Epiloq..................................................................... 176

# Giriş

Gecə sükuta bürünsə də, qəlblərdəki hisslər, deyilməmiş sözlər və gizli xatirələr hələ də danışır, öz izini qoyurdu. Bəziləri uzun illərdir həyatını itirib, bəziləri isə hələ yolunu tapmayıb. Hər baxış, hər gülümsəmə, hər toxunuş bir sirr daşıyır; susqunluq isə sözlərdən daha çox danışır.

İtirilmiş xatirələr və bərk-bərk qorunan ümidlər bir-birinə qarışır, zamanın içində, sanki susqun bir nəğmə kimi oxunur. Baş tutan sevgi, gizlində qalan arzular və açılmamış ürək oxucu üçün bir ipucu, bir çağırışdır. Bəzən sükut açıq danışmaqdan daha çox şey söyləyir; bəzən isə sirli qalan hekayələr, bərk-bərk qorunan sevgi və itirilmiş ümidlər insanı daha da böyüdür.

Sirlər, gizli sevgilər və unudulmaz anlar, sanki gələcək üçün bir işıq kimi qalıb. Bu kitabın səhifələrində gizlənmiş hekayələr oxucunu düşünməyə, hiss etməyə və ürəyində öz taleyini axtarmağa dəvət edir.

Çünki həyat özü də belədir: gözə görünməyən yollar, açılmamış ürəklər və susmuş qəlblər bəzən özündə ən dərin mənaları saxlayır. Baxışlar, toxunuşlar və gülümsəmələr bütün sözlərdən daha güclüdür. Gizli qalan sirlər bir gün öz yolunu tapacaq.

“Əsl sevgi yalnız sükutda böyüyür və ən gözəl anını gözləyir”.

“Həyat dəyişir, amma yanında həqiqi sevgi olduğu müddətcə hər şey mümkündür”.

Bu kitab sizi sirlərə, gizli xatirələrə və unudulmaz anlara aparacaq. Hər səhifə oxucuda həyəcan, maraq və dərin düşüncə oyadacaq. Bəlkə də, qəlbinizin ən dərin künclərini kəşf etməyə dəvət edəcək.

## Birinci hissə

Uzun illər qaranlıq divarlar arasında yaşayan Azər üçün səhər bambaşqa bir səhifə açılırdı. Onun azadlığa çıxacağı gün, nəhayət, gəlmişdi. Ürəyində bircə arzusu vardı – illər əvvəl tərk etmək məcburiyyətində qaldığı evin qapısını yenidən döymək, Həmidə xanımı görmək və indi artıq gənc bir qız olan balaca Mələyi doğum günü münasibətilə təbrik etmək. Sabah Mələyin 15 yaşı tamam olacaqdı. O evi tərk edib gedəndə, Mələk sadəcə beşyaşlı bir uşaq idi...

Gözlənilən gün gəlib çatdı. Azər azadlığa çıxdı. Nə ayaqlarının titrəməsi, nə də qəlbinin ağırlığı onu dayandıra bilmədi. Birbaşa Mələyin yaşadığı evə doğru addımladı. Hər addımda keçmişin səsi qulaqlarında əks-səda verirdi. Günah, peşmanlıq və bir damla ümidlə dolu 10 il...

Bugünkü tarix Azər üçün azadlıq yox, əbədi olaraq yandıran bir xatirə idi. Çünki bu gün Mələyin doğum günüydü.

Hər ilin bu günü Azərin içindəki o hadisə yenidən baş verirdi. Amma 10 ildən sonra belə ən ağır olan məhz bu idi: azadlığa çıxdığı gün dostunun ölümü sevdiyinin itki günü ilə eyni günə düşürdü. Və o tarix hər gün Azərin ruhunda yenidən doğulurdu.

***31 avqust 2015-ci il***

Qapı döyüldü.

Həmidə tələsik dəhlizə keçdi və qapını açan kimi gözlərinə inanmadı – qapı ağzında Azər dayanmışdı.

Həmidə asta səslə, amma heyrətlə:

– Azər... – dedi. – Həmişə azadlıqda! Gəl içəri, qapıda dayanma.

Azər sakitcə başını yelləyib içəri girdi. Ayaqqabılarını çıxarıb mətbəxə keçdi, küncdəki stulda oturdu. Evə qəribə bir sükut çökdü – həm yaxınlıq, həm də keçmişin ağır xatirələri havada asılı qalmışdı. Həmidə tez çay süfrəsi hazırladı.

Elə bu vaxt içəridən Mələyin səsi gəldi:

– Ana, kimdir gələn?

Cavab almadan özü də mətbəxə keçdi. Qapının ağzında dayandı. Donub qaldı. Azərlə göz-gözə gəldilər.

Azərin gözləri dərhal doldu. Bir anlıq heç nə deyə bilmədi. Ayağa qalxıb Mələyə sarıldı, elə bil illərlə itirdiyini yenə tapmış və buraxmaq istəmirmiş kimi möhkəmcə qucaqladı.

Mələk əvvəl-əvvəl çaşdı, sonra qollarını yavaşca onun boynuna doladı. Qucaqlaşma başa çatanda səsi titrədi:

– Xoş gəlmisiniz...

Daha sonra sakitcə otağına çəkildi, Azər isə qayıdıb oturdu və başını aşağı saldı.

Həmidə:

– Xeyli vaxt keçib, – dedi. – Mələk səni tanımadı. Axırıncı dəfə səni görəndə beşcə yaşı vardı axı...

Azər təsdiq mənasında başını yellədi. Dodaqlarının kənarı titrəyirdi. Sakitcə dedi:

– Düz deyirsən... Kaş hər şey o gün başqa cür olaydı...

Həmidə dərindən ah çəkdi, baxışlarını uzaqlara dikdi və ağrılı səslə cavab verdi:

– Özünü qınama, Azər. Sən bunu bilərəkdən etməmişdin. O günlər... O acı xatirələr... Hər ikimizin içini dağlayır. Amma həyat davam edir. Və bu gün... bu gün sən yenidən qapımızı döydün. Bu, bəlkə də, hamımız üçün ikinci bir şansdır...

***31 avqust 2005-ci il...***

Evdə həyəcan, təlaş və sevinc dolu bir gün yaşanırdı. Mələyin 5 yaşı tamam olurdu. Hər kəs bu günü unudulmaz etməyə çalışırdı. Qonaqların sayı çox olduğuna görə ailə bu gözəl günü restoranda qeyd etməyə qərar vermişdi.

Müşfiq – Həmidənin həyat yoldaşı – restorana gələn qonaqları qarşılamalı idi. Bu səbəbdən evdən hamıdan əvvəl çıxmış, xanımını və iki qızını Azərə tapşırmışdı. Azər Müşfiqin uşaqlıqdan bəri ən yaxın dostu idi və bu gün ailəni öz maşını ilə restorana aparacaqdı.

Saat 16:30. Azər gəlib çıxdı. Həmidə xanım və qızları artıq qapının önündə onu gözləyirdilər. Həmidə bir az narahatlıqla soruşdu:

– Azər, bir az gecikdin, hər şey qaydasındadır?

Azər təbəssümlə cavab verdi:

– Fəridə salondan gec çıxdı, ona görə bir az gecikdim.